AZƏRBAYCAN QİYMƏTLƏNDİRİCİLƏR PALATASININ 2026-CI İL ÜÇÜN FƏALİYYƏT PLANI

Məqsəd və hüquqi əsas

İllik fəaliyyət planı Palatanın qanunla müəyyən edilmiş funksiyalarını ölçülə bilən tədbirlərə, icra müddətlərinə, məsul şəxslərə və gözlənilən nəticələrə çevirən idarəetmə sənədidir. Qanunun 18.4.1, 18.4.2, 18.4.4–18.4.12-ci maddələri planlaşdırmanın əsas istiqamətlərini müəyyən etməyə imkan verir.

İllik planın hazırlanması və təsdiqi

Plan layihəsi əvvəlki ilin fəaliyyət nəticələri, üzvlərin ehtiyacları, hüquqi dəyişikliklər, maliyyə imkanları və ölçülə bilən hədəflər əsasında hazırlanır. Rəyasət Heyəti layihəni aidiyyəti struktur vahidləri ilə razılaşdırır, təsdiq səlahiyyəti Palatanın qüvvədə olan Nizamnaməsinə əsasən müəyyən edilir.

1. Metodologiya və standartların inkişafı
1.1 Milli metodologiya paketinin tətbiqinin II mərhələsi
- “IVS 2025” uyğunluğunun praktik tətbiqi üzrə sektorlar üzrə metodologiyaların yekunlaşdırılması;
- Qeyri-ənənəvi aktivlər üzrə (mədəni irs, xidmət sektoru, intellektual mülkiyyət) spesifik metodların genişləndirilməsi;
- ESG-nin qiymətləndirmə proseslərinə inteqrasiyası üzrə “Tətbiqi Təlimat”ın hazırlanması.
Müddət: Yanvar-iyun
1.2 Metodoloji Keyfiyyətə Nəzarət mexanizminin qurulması
Qiymətləndirmə hesabatları üçün vahid metodoloji monitorinq alqoritminin hazırlanması;
Müddət: İyun-dekabr
2. Rəqəmsallaşma və data infrastrukturunun dərinləşdirilməsi
2.1 Qiymətləndirmə hesabatlarının rəqəmsallaşdırılması
- Vahid məlumat bazasının formalaşdırılması;
Müddət: Fevral-sentyabr
2.2 AQP DataHub - tam funksional versiya
- Hesabat reyestrinin genişləndirilməsi və dərin analitika paneli;
- Dövlət qurumları ilə API inteqrasiyalarının yekunlaşdırılması;
- Qiymət zonalaşması xəritəsinin real vaxt rejiminə yaxınlaşdırılması.
Müddət: Yanvar-dekabr
2.3 Rəqəmsal bazar indeksləri
- Açıq Data platformasının genişləndirilməsi;
- Tikinti xərcləri indeksi, daşınmaz əmlak qiymət indeksləri və sektorlarda trendlərin rüblük dərc edilməsi.
Müddət: Rüblük
3. Peşəkar inkişaf, təlim və insan kapitalı
3.1 Yeni Sertifikatlaşdırma Modeli (DİM-siz)
- Palata daxilində modul əsaslı qiymətləndirmə tədris sistemi;
- ESG, DataHub istifadə bacarıqları, metodoloji audit modulları.
Müddət: Aprel-dekabr
3.2 Praktik ixtisasartırma proqramları
- Qiymətləndirmə bazar iştirakçaları üçün sahəvi təlim paketləri;
- Real hesabat nümunələri üzərindən seminarlar.
Müddət: İlin ikinci yarısı

3.3 Qiymətləndirmə məktəbi layihəsi
- Təcrübə proqramı (universitetlər, magistr tələbələri üçün);
- Mentorluq mexanizminin formalaşdırılması (təcrübənin sistemli ötürülməsi, peşə etikası və metodoloji yanaşmanın davamlı şəkildə formalaşdırılması üçün qurulan institusional modeldir).
Müddət: İyun-dekabr
4. Etika, keyfiyyətə nəzarət mexanizmləri
4.1 Risk əsaslı keyfiyyətə nəzarət sistemi
- DataHub üzərindən avtomatik risk siqnallarının işə salınması;
- Yüksək riskli hesabatlarda metodoloji audit.
Müddət: İyun
4.2 Etik çərçivənin gücləndirilməsi
- "Etik Davranış Qaydaları"na yenidən baxış;
- Şikayətlərin rəqəmsal idarəetmə paneli.
Müddət: Yanvar-may
4.3 İllik etika və keyfiyyət hesabatı
- Sektorda tendensiyalar, risk nöqtələri, təkrarlanan pozuntular üzrə analitik hesabat.
Müddət: Mart-dekabr
5. Beynəlxalq əməkdaşlıq və strateji tərəfdaşlıqlar
5.1 IVSC ilə institusional əməkdaşlığın genişləndirilməsi
- IVS 2025 tətbiq mexanizmlərinin uyğunluğu üzrə rəsmi ekspert rəyləri;
- AQP-nin regional ekspert platformasına çıxışı.
Müddət: İlboyu
5.2 TEGoVA və RICS ilə qarşılıqlı tanınma istiqamətində mərhələli danışıqlar
- Azərbaycanın regional qiymətləndirmə mərkəzi kimi tanıdılması istiqamətində addımlar.
Müddət: İlin ikinci yarısı
5.3 Beynəlxalq konfranslarda təmsilçilik
- IVSC illik konfransı;
- Region Qiymətləndiricilər Forumunda iştirak.
Müddət: Təqvimə əsasən
5.4 Regional ekspert platformasının qurulması
- Türkiyə, Qazaxıstan, Gürcüstan və Mərkəzi Asiya palataları ilə texniki əməkdaşlıq xətti.
Müddət: Sentyabr–Dekabr
6. Kommunikasiya, ictimaiyyətlə əlaqələr və media strategiyası
6.1 Media ilə peşəkar inteqrasiya proqramı
- Rüblük media brifinqləri;
- Qiymətləndirmə bazarı üzrə "Aylıq Analitik Bulletin"
- İctimai informasiya çərçivələrinin genişləndirilməsi.
Müddət: İlboyu
6.2 "Qiymətləndiricilər Forumu 2026" - genişləndirilmiş format
- ESG, rəqəmsallaşma, AQM və beynəlxalq standartlar üzrə panel sessiyalar;
- Xarici spikerlərin iştirakı.
Müddət: Oktyabr
6.3 AQP-nin korporativ kommunikasiya xəttinin yenilənməsi
- Brend mesajlarının yenilənməsi;
- Strateji kommunikasiya alqoritmi.
Müddət: Yanvar–iyun
7. Daxili idarəetmə, institusional gücləndirmə və şəffaflıq
7.1 Daxili idarəetmənin rəqəmsallaşdırılması
- Elektron sənəd dövriyyəsinin tam rəqəmsal formata keçirilməsi;

- Rəhbərliyin idarəetmə panelinin istifadəyə verilməsi.
Müddət: Yanvar-sentyabr
7.2 İdarəetmə və risk xəritəsi
- 2026 institusional risk xəritəsi və azaldıcı tədbirlər.
Müddət: Noyabr
7.3 İllik fəaliyyət hesabatı və ictimai təqdimat
- Geniş analitik hesabat;
- Açıq təqdimat formatında ictimai təqdimat.
Müddət: Dekabr